**UOT 93**

***Şəlalə Bağırova,***
***Azərbaycan Dillər Universiteti,***
***tarix üzrə fəlsəfə doktoru, dosent,***
***baghirova.shalala@mail.ru***
***ORCID iD: 0000-0002-0085-3893***
**https://doi.org/10.59849/2709-5096.2023.1.63**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKIDA GÜRCÜ İCMASININ FƏALİYYƏTİ

***Annotasiya***

*XIX əsrin ikinci yarısında neft sənayesinin sürətli inkişafı ilə əlaqədar olaraq Bakı şəhəri güclü sənaye şəhərinə çevrilmişdi. Bu səbəbdən şəhərə Rusiya imperiyasının müxtəlif yerlərindən, xüsusilə də Cənubi Qafqazdan qazanc üçün kütləvi şəkildə müxtəlif xalqların nümayəndələri – ruslar, ermənilər, yəhudilər və digərləri axışırdı. Miqrasiya edənlərin içərisində gürcülər də çoxluq təşkil edirdi. Bakıda məskunlaşan gürcülərin arasında sahibkarlar, ziyalılar, fəhlələlər vardı. Bakı gürcüləri arasında imkanlı şəxslər və ziyalılar qısa bir zaman ərzində birləşərək, böyük icma halına gəlmiş və ehtiyac içərisində yaşayan həmvətənlərinin dolanışıqlarını təmin etmək üçün əhəmiyyətli tədbirlər görmüşdülər. Gürcü ziyalıları öz həmvətənləri arasında maarifçilik fəaliyyəti, sahibkarlar isə ehtiyacı olanlara maddi yardımların edilməsi ilə fərqlənirdilər. Qəpik-quruş üçün fəhləlik edən, yoxsul, kasıb gürcülərə yardımların təşkil edilməsi Bakı gürcülərinin qarşısında duran mühüm problemlərdən idi. Bu məqsədlə şəhərdə ilk mütəşəkkil gürcü ictimai təşkilatı yaranana qədər müxtəlif xeyriyyə tədbirləri keçirilir, vəsaitlər toplanılırdı.*

*Bakı şəhəri həm də hökumətdən qaçıb gizlənən gürcü inqilabçılarının, bolçeviklərin sığınacaq yeri idi. Onlar xeyriyyə tədbirlərində iştirak etmirdilər, fəaliyyətlərini yalnız bolşevizmin qələbəsinə yönəltmiş və təbliğatla məşğul olurdular.*

*Təqdim olunan məqalədə XX əsrin əvvəllərində Bakı şəhərində formalaşmış gürcü icmasının fəaliyyəti araşdırılmışdır. Bakıda yaradılmış ictimai birliklər, təşkilatlar, onların fəaliyyət istiqaməti təhlil edilmişdir.*

***Açar sözlər:*** *Bakı, Gürcü diasporu, xeyriyyəçilik, maddi yardım, maarifçilik, məktəb, ictimai cəmiyyətlər.*

**Shalala Bagirova**

# THE ACTIVITY OF THE GEORGIAN COMMUNITY IN BAKU IN THE EARLY 20$^{TH}$ CENTURY

***Annotation***

*The rapid development of the oil industry in the second half of the 19$^{th}$ century led Baku to become a powerful industrial city. As a result, individuals from various nations, such as Russians, Armenians, Jews, Georgians, and others, migrated to the city from different parts of the Russian Empire, especially from the South Caucasus, seeking financial gain. Georgians, including entrepreneurs, intellectuals, and workers, were among those who settled in Baku. In a short period, wealthy and intellectual individuals, including Baku Georgians, formed a diaspora and took significant measures to support their compatriots living in need. Georgian intellectuals distinguished themselves from their compatriots through their educational activities, while entrepreneurs provided financial assistance to those in need. However, one of the significant challenges facing the Georgians of Baku was the organization of support for poor Georgians working for meager wages. Until the establishment of the first public organization in the city, various charity events were held, and funds were collected to address this issue.*

*Moreover, Baku city provided refuge for Georgian revolutionaries and Bolsheviks who were hiding from the government. Although they did not participate in charity events, they focused their activities solely on the triumph of Bolshevism.*

*This article studies the activity of the Georgian diaspora that emerged in the city of Baku at the beginning of the 20th century. It analyzes the social associations, organizations, and the direction of their activities created to support their community.*

***Keywords:*** *Baku, Georgian community, charity, material assistance, enlightenment, school, public organizations.*

***Giriş***

XIX əsrin ikinci yarısından etibarən Bakının neft sənayesi mərkəzinə çevrilməsi buraya Rusiya imperiyasının müxtəlif yerlərindən insan axınına səbəb oldu. Bakı şəhəri mühacirlər üçün qazanc yeri olmaqla yanaşı, həm də ictimai-siyasi mərkəzə çevrilməkdə idi. Buraya köçüb gələn ruslar, ermənilər, haqqında söz açacağımız gürcülər və digər xalqların nümayəndələri icma halına gəlməyə nail olmuşdular. Qeyd edək ki, Bakıda qeyri-müsəlmanlar arasında ictimai təşkilatlanma ilk dəfə olaraq XIX əsrin 60-cı illərində ermənilər arasında baş vermişdi. Gürcülər arasında isə bu proses XX əsrin əvvəllərindən başlamışdır.

İctimai təşkilatlanma İmperator II Nikolayın "17 oktyabr Manifesti" adı altında tarixə düşən sənədin imzalanmasından sonra kütləvi hal aldı. Manifestin şərtlərindən birini "Xalqa vətəndaş azadlıqlarının sarsılmaz əsaslarını – söz, toplantı, vicdan şəxsiyyətin toxunulmazlığının bağışlanılması" təşkil edirdi. [9, s. 25] Bunun ardınca islahatların keçirilməsinin labüdlüyünü başa düşən İmperator 1906-cı ilin martın 4-də "Cəmiyyətlər və ittifaqlar haqqında müvəqqəti qaydalar" adlı digər bir sənəd imzalamışdı. [1, v. 66] Bu qaydalar 17 oktyabr 1905-ci il manifestinin ideyalarını daha da inkişaf etdirirdi. Müvəqqəti qaydalar ictimai cəmiyyətlərin yaradılmasını əhalinin potensial imkanlarından qanuni hüquqlarına doğru dəyişməsinə xidmət edirdi. Qaydaların 22-ci maddəsinə əsasən, hər bir təşkilat, cəmiyyət öz nizamnamə layihəsini hazırlayıb müvafiq strukturlara təqdim edir, razılaşdırıldığı təqdirdə əsli təsdiq olunurdu. Bununla da cəmiyyət fəaliyyətə başlayırdı. Məlum fərmanlardan sonra imperiyanın hər yerində olduğu kimi, Şimali Azərbaycanın mərkəzi olan Bakı şəhərində bir-birinin ardıyca ictimai təşkilatlar, siyasi partiyalar yaranmaqda idi. Bunlar müsəlmanlarla yanaşı, qeyri-müsəlman millətləri, o cümlədən gürcülər arasında da kütləvilik təşkil edirdi.

Qeyd edək ki, Bakı şəhərində məskunlaşan gürcülər arasında sahibkarlar, ziyalılar, fəhlələr, bolşeviklər də vardı. Bolşeviklər gürcü icmasının ictimai həyatda mədəni-maarifçilik istiqamətində gördüyü işlərə qoşulmamış, fəaliyyətlərini bolşeviklərin qələbəsinə yönəldərək, gürcü fəhlələri arasında maarifçilik adı altında öz ideyalarını təbliğ edirdilər. Lakin gürcü ziyalıları öz həmvətənləri arasında maarifçilik fəaliyyəti, sahibkarlar isə ehtiyacı olanlara maddi yardımların edilməsi ilə fərqlənirdilər. Qəpik-quruş üçün fəhləlik edən, yoxsul, kasıb gürcülərə yardımların təşkil edilməsi Bakı gürcülərinin qarşısında duran mühüm problemlərdən idi. Bu məqsədlə şəhərdə ilk ictimai təşkilat yaradana qədər müxtəlif xeyriyyə tədbirləri keçirilir, vəsaitlər toplanılırdı. Ümumiyyətlə, Bakıda yaşayan bütün gürcülərin öz həmvətənləri qarşısında dayanan əsas məqsəd xeyriyyəçilik və maarifçilik idi. Bir məsələni də vurğulamaq lazımdır ki, gürcü müəlliflərinin elmi araşdırmalarında Bakıda məskunlaşan gürcü icması diaspor olaraq görstərilmişdir. Lakin arxiv sənədlərində gürcü icması qeyd olunduğu üçün məqalədə icma anlayışı işlədilmişdir.

***Bakı şəhərində məskunlaşmış gürcülərin fəaliyyət dairəsi***

XIX əsrin II yarısında Abşeron yarımadasında neft sənayesinin inkişafı ilə əlaqədar olaraq, Bakı Cənubi Qafqazın sənaye mərkəzinə çevrilmişdi. Şimali Azərbaycanda sənayenin sürətlə inkişaf etməsi, Bakı neftinin Qərbin neft şirkətlərinin demək olar ki, imperiya ərazisindən sıxışdırıb çıxartması buraya Rusiyadan, Cənubi Qafqazdan qazanc üçün kütləvi miqrasiyaya şərait yaratmışdı. Belə vəziyyət Bakını regionda multietnik şəhərə çevirmişdi.

Bakıya köçüb gələn mühacirlər arasında gürcülər də vardı. Hələ 1872-ci ildə Bakıda hökumətin neft quyularını açıq şəkildə satdığı gürcülərin sırasında S.Zubalaşvili, A.Eristavi, Cakeli və digərlərinin adı keçir. [8]

Bəhs edilən dövrdə indiki Gürcüstan ərazisində torpaqsız və yaxud da aztorpaqlı gürcü kəndlilərinin sayı kəskin şəkildə artmaqda idi və onlar qazanc əldə etmək üçün öz məmləkətlərini tərk etmək məcburiyyətində idilər. [12, s.87] Belə bir şəraitdə təbii ki, sənaye mərkəzi olan Bakı işsizlər ordusu üçün çox əlverişli məkan sayılırdı.

Bakı şəhərində sayı artmaqda olan gürcülər arasında ilk vaxtlar ana dili, təhsil problemi, mətbu orqanının olmaması halı mövcud idi. Tiflisdə nəşr olunan qəzetlərdə Bakı gürcülərinin üzləşdikləri bu çətinliklər qeyd olunur və problemdən çıxış yolları araşdırılırdı. Misal üçün, 1897-ci ildə "İveriya" qəzetinin 128-ci nömrəsində "Quruli" təxəllüsü altında bir şəxs yazırdı:

"*Bakıda müxtəlif millətlərdən olan çox xalq yaşayır və onların hamısı, demək olar ki, kilsəyə, məktəbə, kitabxanaya və digər bu kimi təşkilatlara malikdir. Onlar arasında yalnız biz gürcülər istisna təşkil edirik. Bizim nəinki kilsə və məktəbimiz, heç kitabxanamız belə yoxdur*". [11, s. 185]. Yaxud da "*demək olar ki, hər şəhər və qəsəbədə biz kitabxanaların, kilsə məktəblərinin təşkili barəsində eşidirik. Amma biz – Bakıdakı gürcü icması şirin yuxuda yatırıq və oyanış haqqında düşünmürük. Bu böyük ticarət şəhərində biz gürcülər çoxuq, təxminən 3 000 nəfərik*". [11, s.185]. Göründüyü kimi, mədəni oyanış məsələsi Bakı gürcü icmasını düşündürən məsələ idi.

Burada bir haşiyə çıxmaq istərdik: 1879-cu ildə Tiflis şəhərində ilk dəfə olaraq, "Gürcülər arasında savadlılığın yayılması cəmiyyəti" fəaliyyətə başlamışdı. Xeyriyyəçilik və maarifçilik xarakteri daşıyan bu cəmiyyətin yaradıcıları gürcü maarifçiləri və istimai-siyasi xadimləri İlya Çavçavadze, Dmitri Kipiani, Yakob Qoqebaşvili olmuşdur. İlya Çavçavadze gürcü qızlarının təhsilə cəlb olunmasının əsas təşəbbüskarı sayılırdı. Cəmiyyət bir neçə məktəbə, kitab dükanlarına və kitabxanalara malik idi. Bununla yanaşı olaraq cəmiyyət müəllimlərin təhsil almasına yardım edir, istedadlıları Peterburq və xarici ölkələrdə oxumağa göndərirdi. Ümumiyyətlə, "Gürcülər arasında savadlılığın yayılması cəmiyyəti"nin təşkili təhsilə və kəndlərdə ana dilinin tətbiqinə əhəmiyyətli təkan verirdi. Cəmiyyət milli təhsil sistemi, gürcü dili məktəbləri, pedaqogikaya yeni yanaşma yaratmış və ən əsası da ədəbi dili formalaşdırmaq üçün dili islah edərək, 5 köhnəlmiş, arxaik hərfi əlifbadan çıxartmışdı. Cəmiyyətin gürcü xalqı üçün iki əsas məqsədi var idi: birincisi, ana dilini qorumaq mütləq idi. Üzvlərin hər biri Rusiya imperiyasının ruslaşdırma siyasətini və bunun məktəblərdən başlanmasını çox gözəl başa düşürdü. İkinci məqsəd isə cəmiyyətin gördüyü işlərdə qadınların rolu və əhəmiyyətini ön plana çəkməkdən ibarət olmuşdur. Maraqlıdır ki, qadın bərabərliyi ideyası bəhs edilən dövrdə Avropa dövlətlərində belə düzgün təşəkkül tapa bilməmişdi. [7, s. 124]. XX əsrin əvvəllərində bu cəmiyyət Bakı şəhərində öz şöbəsini açmağa nail olmuşdu.

1904-cü ildə Bakıda yaşayan gürcülərin sayı 3149 nəfər idi. [8]. Bakı şəhərində gürcülər yığcam şəkildə məskunlaşaraq, əsasən fəhlələrdən ibarət "Bakı gürcülərinin koloniyası"nı yaratmışdılar. [8] Sahibkarlıqla yanaşı, Bakı gürcülərinin böyük əksəriyyəti fəhləliklə məşğul olur və yaxud da müxtəlif müəssisələrdə çalışırdılar. Gürcülər arasında bolşeviklər də vardı. Onların sırasında İ.Stalin, F.Maxaradze, L. Ketsxoveli, A.Sulukidze, M.Çodrişvili, P.Caparidze və digərlərinin adlarını çəkmək olar. Maraqlı məsələlərdən biri Bakı şəhərinin hökumətdən qaçıb gizlənən gürcü inqilabçılarının sığınacaq yeri olması idi. Misal üçün, Kutaisi quberniyası, Şaronan qəzası, Siltatskaro kəndində yaşayan bir keşişin oğlu olan Qriqoriy Spiridonoviç Cuqeli adlı şəxs sosialist-inqilabçı partiyanın fəal üzvlərindən idi. Axtarışda olan Cuqeli Bakıda knyaz Solomon Mikeladze və Qriqoriy Spiridonoviç Maysuradze adları altında yaşayırdı. Sözügedən şəxs haqqında axtarış və saxlanılma cəzası kəsilmiş və Tiflis şəhərində Qafqaz rayon Təhlükəsizlik Şöbəsinə yönləndirilmişdi. Bundan əlavə, Qriqoriy Cuqeli 1905-ci ildə Kutaisi şəhərində həbs edilmiş gürcü inqilabi hərəkatının liderlərindən Noy Homeriki müşaiyət edən konvoya təşkil olunan basqının da iştirakçısı olmuş və onu azad etmişdi. Bu işə görə Cuqeli həbs olunmuş, lakin istintaq vaxtı şərti azadlığa buraxılmış, məhkəmə ərəfəsində isə gizlənmişdi. Məhkəmənin qiyabi qərarına əsasən, Cuqeliyə 6 il katorqa cəzası kəsilmişdi. [5, v. 8, 8b] Başqa bir misal: bolşevik,

dövrün görkəmli natiqlərindən olan Mixail Bakradze Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının Bakı komitəsi ilə sıx əməkdaşlıq edirdi. 1905-ci ilin sentyabrın 4-də “Elektrik gücü” Səhmdar Cəmiyyətinin Bayıl burnunda yerləşən binasında M. Bakradzenin sədrliyi ilə təxminən 50 nəfər bolşevikin cəmləşdiyi hazırlıq iclası keçirilmişdi. [4, v. 17b] Sədr iclasda komitənin vəsaiti, keçmiş rayon komitələrinin bərpası, tatar (müsəlman) mühafizəçiləri ilə münasibətlər, fəhlələrin silahla təminatı və digər məsələləri müzakirəyə qoymuşdu. Bununla yanaşı, Bakradze Qafqazda, xüsusilə də Bakıda erməni-müsəlman münasibətlərini təsvir etmiş və baş verən qırğınların günahını general-qubernator və polisin fəaliyyətsizliyində görmüşdü. Məsələnin maraqlı və qaranlıq tərəfi isə Bakradzenin müsəlmanları üsyankar adlandırması idi. Maraqlıdır, öz doğma torpağında olan müsəlman niyə üsyankar olsun ki? Bununla kifayətlənməyərək, natiq gürcüləri həmin müsəlmanlara silahlı müqavimət göstərməyə çağırmışdı. Görünür ki, Bakradzenin fəaliyyətində “ermənilərin dəyirmanına su tökmək” kimi taktika vardı. Qeyd edək ki, hakim dairələr baş tutan bu gizli iclasdan xəbər tutmuş və Bakradze Bakı quberniyası qubernatorunun 1905-ci il 17 sentyabr tarixli əmri ilə 3 ay müddətinə həbsə məhkum edilmişdi. [4, v. 17b]

XX əsrin əvvəllərindən etibarən Bakı gürcü icması şəhərdə “gürcü axşamları” adı altında tədbirlər keçirirdi. Xeyriyyəçilik xarakteri daşıyan bu tədbirlərdə əsasən gürcülər iştirak edirdilər. Burada müxtəlif uduşlu lotereyalar keçirilir, yarmarkalar təşkil olunur və ianələr toplanılırdı. Qeyd edək ki, “gürcü axşamları” ənənəvi hal almağa başlamış və sonralar bu tədbirlərdə gürcülərlə yanaşı, digər millətdən olan, o cümlədən, azərbaycanlı xeyriyyəçilər də iştirak edirdilər. Bu tədbirlərdə toplanan ianələr, ilk növbədə, şəhərdə gürcü dilində mətbu orqanının təşkil olunmasına yönəlmişdi. Bunun nəticəsi idi ki, 1910-cu il yanvarın 14-də Bakı gürcülərinin ilk qəzeti “Martsvali” (Buğda) nəşr olunmağa başladı. [8] 1913-cü ilin yanvarın 1-də “Skaro” (Bulaq) qəzeti işıq üzü gördü, Qəzet həmin ilin mart ayında “Çveni Skaro” (Bizim bulaq) adı altında nəşr edilməyə başladı və ictimai-siyasi xarakter daşıyırdı.

1918-ci ilin mart ayında daşnak-bolşevik birləşmələrinin türk-müsəlmanlara qarşı törətdikləri kütləvi qətliamlarda Bakının gürcü sakinləri də zərər görmüşdülər. Fövqəladə Təhqiqat Komissyasının istintaq materiallarında Bakı gürcülərinin ifadələri də geniş yer alır. Misal üçün, Levan Vladimiroviç Qoqoberidze istintaq zamanı bunları söyləmişdi: “*Mart qırğınları zamanı mən Balaxanı kəndində, Ağayev qardaşlarının evində yaşayırdım. Evi ermənilər Ayrapet Surqulyantsın başçılığı altında mühasirəyə almış və gülləbaran etmişdilər. Mən özümlə pul, saat, əmanət kitabçasını və digər əşyaları götürərək evdən qaçmağa qərar verdim. Mənimlə Mahmud Ağayev və adlarını bilmədiyim bir neçə müsəlman da qaçırdı. Arxa qapıdan bir qədər aralı ermənilər bizi saxladılar. Ağayev ayağından güllə yarası aldı, biz mühasirəyə alındıq və bölməyə aparıldıq. Mənim üstümdəki bütün əşyaları əlimdən aldılar. Beş gün bölmədə qaldıq... Mənim qarət edilmiş varidatım 1918-ci ilin mart ayının qiymətlərinə görə 46.230 rubl təşkil edirdi...*”. [13, s. 442] Digər bir istintaq materialından misal: Malaxiy Spiridonoviç Saqanelidzenin dediklərinə görə, onun Biləcəri stansiyasında sahib olduğu bufetə ermənilər basqın etmiş və bura ilə yanaşı, evini də qarət etmişdilər. [13, s. 124] Faktlardan aydın olur ki, erməni daşnakları qeyri-müsəlman olduqları üçün gürcülərin həyatlarına müdaxilər etməyərək, soyğunçuluq və talançılıqla kifayətlənmişdilər.

Bakının gürcü icması şəhərdəki xeyriyyə tədbirləri ilə yanaşı, Gürcüstan ərazisində baş verən siyasi hadisələri də izləyir və onlara mümkün yardımları göstərirdilər. Misal üçün, 1914-cü ildə “Gürcülər arasında savadlılığn yayılması cəmiyyəti”nin təşəbbüsü ilə Bakı şöbəsində xüsusi komitə yaradılmış və yığılan 2 000 rubl Gürcüstanın cənub-qərbindəki ehtiyatı olan acarlara yardım olaraq göndərilmişdi. [8]

***Bakıda gürcü ictimai cəmiyyətlərinin yaranması və fəaliyyəti***

XIX əsrin ikinci yarısından etibarən Tiflisdə ictimai təşkilatlar yaranmaqda idi. Gürcü qadın ictimai təşkilatları da cəmiyyətin inkişafında xüsusi rola malik idi. Gürcüstan ərazisində yaranan müxtəlif qadın təşkilatları ziyalı xanımları öz ətrafında birləşdirir və onların geniş miqyaslı layihələr həyata keçirtməsinə vəsilə olurdular. Müqəddəs Nina Qadın Xeyriyyə Cəmiyyəti (Tiflis,

1860), Tiflis Müəllim və Tərbiyəçilərin Qarşılıqlı Yardım Cəmiyyəti (Poti, 1886), Telavi Qadın Birliyi (Telavi, 1895), Qadın Birliyi Ticarət Evi (1896), Tiflis Uşaq Rifahı Dərnəyi (1898), Borjomi Qadın Xeyriyyə Cəmiyyəti (Borjomi, 1900), Xoni Qadın Dərnəyi (1903), Kutaisi Qadın Təsərrüfat Cəmiyyəti (1904), "Qanatleba" Gürcü Cəmiyyəti (1908), Tiflis Qafqaz Qadınları Cəmiyyəti (1909), Kutaisi Qadınlar Cəmiyyəti (1912), Tiflis Gürcü Qadınları Cəmiyyəti (1913), "Mandilosani" Qori Qadın Xeyriyyə Cəmiyyəti (1913) bu qəbildən idi. [10]

Bakı şəhərində gürcülərin yaratdıqları və xeyriyyəçilik məsələləri ilə məşğul olan təşkilat 1905-cı ilin fevralında təsis edilmiş "Bakı Gürcü Xeyriyyə Cəmiyyəti" idi. [3, v.6] Cəmiyyət cinsindən, yaşından, sosial vəziyyətindən və rütbəsindən asılı olmayaraq, Bakı şəhərində daimi və yaxud da müvəqqəti yaşayan gürcülərin maddi və mənəvi rifahına xidmət edirdi. Ehtiyacı olan və əmək qabiliyyəti olmayan gürcülərə geyim, qida, sığınacaq, bəzi hallarda isə pul yardımları təşkil olunurdu. Eyni zamanda, ehtiyacı olanlara məşğuliyyət və yaxud da iş yeri tapmaq, onları əmək vasitələri ilə təmin etmək; kasıblara tibbi yardımların təşkili – dərmanlarla təminat, həkim müayinəsi, xəstəxanalarda yerləşdirmək və vəfat edənləri dəfn etmək; qocaları və kimsəsizləri himayədarlıq evlərinə, kilsələrdə, kimsəsiz uşaqları yetimxanalarda, sığınacaqlarda, sənət və tədris məktəblərində yerləşdirmək cəmiyyətin əsas məqsədi idi. 1906-cı ildən isə yeni nizamnaməyə əsasən, cəmiyyət fəaliyyətini "Bakı Gürcü Cəmiyyəti" adı altında davam etdirməyə başlamış və məqsədi maarifçiliyin təbliği – məktəblərin açılması, oxuların, mühazirələrin, kitabxana-oxu zallarının, yeməkxanaların təşkili, Bakı icması ilə miqrantlar və yaxud da müvəqqəti məskunlaşmış şəxslər arasında əlaqələrin yaradılması və ehtiyacı olan gürcülərə maarifçi və digər ictimai təşkilatlar vasitəsi ilə yardımların edilməsindən ibarət idi. Gürcülərin iqtisadi şəraitin yaxşılaşdırılması ilə əlaqədar olaraq, cəmiyyət işini və gəlirini itirmiş həmvətənlərinə maddi yardımlar edir, onların ailələri köməklik göstərir, bədbəxt hadisə zamanı müavinətlər və kreditlər ayırır, cəviyyətin üzvlərinin iqtisadi problemlərinə aid irili-xırdalı problemlərin həlli ilə məşğul olurdu. [2, v.1] "Bakı Gürcü Cəmiyyəti" yaradılan cəmiyyətlər içərisində ən böyüyü olub, Bakı şəhəri, onun ətrafında müvəqqəti məskunlaşan və yaxud da daimi yaşayan gürcülərin ehtiyaclarını ödəmək və yoxsul gürcülərə maddi və mənəvi yardımların təşkil etməklə məşğul olurdu. Cəmiyyətin sədri İosif İulonoviç Dadiani idi. [2, v.2]

Yuxarıda qeyd edildiyi kimi, Bakı şəhərində "Gürcülər arasında savadlılığın yayılması cəmiyyəti"nin şöbəsi açılmışdı. Şöbə 1909-cu ildə təsis olunmuşdu. Bunun üçün gürcü mühacirləri cəmiyyətin Tiflisdəki rəhbərliyinə müraciət etmişdilər, çünki əhalisinin əsasən müsəlmanlardan ibarət olduğu və çoxlu sayda digər xalqların nümayəndələrinin məskunlaşdırıldığı bir mühitdə gürcülər assimilyasiyaya məruz qalmaqlarından və özlərinə yad bir mədəniyyətə tamamilə inteqrasiya edəcəklərindən ehtiyat edirdilər. Hələ 1904-cü ildə Bakı mesenatı Stefane Zubalaşvili cəmiyyətin ümumi fonduna 10 000 rubl köçürtmüşdü. [11, s. 187] Ümumilikdə isə Zaqatala, Gəncə, Ağstafa, Yevlax, Göyçay, Səlyan, Quba, Lənkəranda yaşayan gürcülər cəmiyyətə yardımlar etmişdilər. Şöbənin məqsədi Bakının gürcü əhalisinin birliyinə xidmət etmək idi və şəhərdə gürcü dilində məktəblərin açılması, pulsuz kitabların paylanılması və oxu zallarının təşkil edilməsi qarşıda duran əsas məsələlər idi. Bakıda məskunlaşmış gürcü gənclərinin öz ana dillərini və tarixlərini öyrənmək imkanları yox idi. Odur ki, cəmiyyətin Bakı şöbəsi gürcü tarixi və ədəbiyyatının təbliği məqsədi ilə mühazirələrin oxunmasını da təşkil etməyi əsas məsələlərdən sayırdı.

"Gürcülər arasında savadlılığın yayılması cəmiyyəti"nin digər bir şöbəsi 1913-cü ildə Gəncədə açılmışdı. Şöbə burada da məktəb açmaq məqsədində idi və bu haqda qərar da qəbul etmişdi. 1914-cü ildə I Dünya müharibəsinin başlanması, ümumilikdə, ölkədə baş verən siyasi proseslər məktəbin açılmasına əngəl törətdi. Lakin şöbə Şimali Azərbaycanın qərb bölgələrində yaşayan gürcü fəhlələrinin mədəni inkişafında xüsusi fəallıq göstərərək, onların maariflənməsinə yardımçı olurdu. Ümumilikdə, cəmiyyətin səmərəli fəaliyyətinin nəticəsi olaraq, 1909-cu ilin oktyabrın 4-də Bakıda 7-13 yaşlı uşaqlar üçün iki sinifli gürcü məktəbi açılmışdı. 1911-ci il üçün məktəbdə 73 şagird təhsil alırdı. [6, s.224] 1911-1913-cü illərdə məktəbin daha iki sinfi istifadəyə verilmişdi. Məktəbin əsas gəlir mənbəyini ianələrlə yanaşı, xeyriyyə tədbirlərindən yığılan vəsait

təşkil edirdi. 1918-ci ilin dekabr ayında məktəb bağlanmışdı. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, xüsusilə də qeyri-müsəlmanların hökmranlıq etdikləri Bakı şəhərində yerli türk-müsəlman əhalini birlik halına gətirərək, ümumi nizam yaratmış və görünür ki, bütün bunlar gürcü icmasını ehtiyatlı olmağa sövq etmişdi. Qeyd edək ki, həmin gürcü məktəbi Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən süquta uğradıldıqdan sonra yenidən fəaliyyətə başlamışdı. Xüsusilə vurğulamaq vacibdir ki, dinindən, dilindən, milli mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verən Azərbaycan Xalq Cümhuriyyəti dövründə qeyri-müsəlman ictimai təşkilatları öz fəaliyyətlərini davam etdirirdilər. AXC hökuməti ölkədə fəaliyyət göstərən bütün xoşməramlı qeyri-müsəlman təşkilatlarının fəaliyyətində yaxından iştirak edərək, sağlam vətəndaş cəmiyyəti mühitinin formalaşmasına rəvac verirdi.

Gürcü icmasına aid digər ictimai təşkilat "Bakı şəhəri və onun rayonlarında gürcü ədəbi-bədii dərnəyi" idi. Dərnəyin əsas fəaliyyət istiqaməti ümumi gücləri birləşdirərək, Bakıda və onun kənarlarında yaşayan gürcülərin mənəvi, mədəni ehtiyaclarını təmin etmək idi. Daha dəqiq desək, gürcülərin asudə vaxtının səmərəli təşkili üçün var-qüvvəni sərf etmək vacib məsələ idi. Bu problemləri həll etmək üçün dərnək məkan icarəyə götürür, ümumi əsaslarla daşınar və daşınmaz mülkiyyət əldə edir, kitabxana-oxu zalı, dram dərnəkləri və tamaşalar, ədəbi və musiqili axşamlar, iclaslar, mühazirələr, müsahibələr, müştərək oxular, referatlar, axşam kursları təşkil edir, kitab mağazaları və köşklər açır, qəzet və jurnallar nəşr edir, elmin müxtəlif sahələrində çalışan alimləri gürcü və digər dillərdə mühazirələr oxumaq üçün dəvət edirdi. [4, v.1b]

Bakıda "Gürcü Qadınları Dərnəyi" də fəaliyyət göstərirdi. Onun fəaliyyəti çoxşaxəli və səmərəli idi. Dərnəyin üzvləri imkanlı gürcülərdən ianələr toplayaraq, ehtiyacı olanları təmin edirdilər. Tamaşalar təşkil edən dərnək gürcü qızlarının təhsili məsələsini də qabardır, onlar üçün tikmə, toxuma və digər faydalı işlər öyrədən ixtisas kursları təşkil edirdilər. Qeyd edək ki, Azərbaycan zadəganları arasında milyonçu Murtuza Muxtarov və onun xanımı Liza Muxtarova da dərnəyin fəaliyyətində öz köməklərini əsirgəmirdilər.

***Nəticə***

Rusiya imperiyasının işğalından sonra əsarət altına alınmış xalqların həyatında savadsızlığın ləğvindən ötrü bəzi işlər görülmüşdü: ana dilində təhsil qadağan olunmuş, ruslaşdırma geniş yayılmışdı. Bu baxımdan Bakıda məskunlaşan gürcü icması böyük işlər görməyə müvəffəq ola bilmişdilər. Eyni zamanda digər təşkilatlar da həm maddi, həm də mənəvi baxımdan yoxsullara, imkansızlara dayaq olurdular. Göründüyü kimi, XX əsrin əvvəllərində Bakının gürcü icması öz milli kimliklərini qoruyub saxlamağa nail ola bilmişdilər. Bakıda qazanılan maliyyə vəsaitinin hesabına imkanlı gürcülər öz həmvətənlərinin maddi təminatında yaxından iştirak edirdilər. Maraqlıdır ki, istər gürcü müəlliflərinin əsərlərində, istərsə də arxiv materiallarında Bakıda yaşayan gürcü zadəganlarının yerli müsəlmanlara yardımları ilə bağlı heç bir məlumata rast gəlinməmişdir. Əksinə, Azərbaycanın görkəmli xeyriyyəçi insanları qeyri-müsəlman ictimai təşkilatılarına maliyyə yardımları edirdilər. Bir sözlə, Bakı şəhəri nəinki gürcülər, eləcə də ruslar, ermənilər və digər xalqlar üçün gəlir mənbəyi idi.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi / Циркуляры департамента полиции и общих дел о наблюдении за деятельностью просветительных обществ, о правилах представления отчетов профессиональных обществ, о разрешении устройства собраний и переписка с наместником на Кавказе и бакинским полицмейстером по этому вопросу. Список существующих профессиональных обществ в Баку. Фонд 46, опись 2, единица хранения 50.

2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi/ Дело об образовании бакинского грузинского общества. Фонд 46, опись 2, единица хранения 73.

3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi/ Дело об образовании бакинского грузинского благотворительного общества. Фонд 46, опись 2, единица хранения 88.

4. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. Общество грузинско-литературного кружка гор. Баку и его районов. Фонд 46, опись 2, единица хранения159.

5. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi / Кружок «Дружина к спорту». Фонд 46, опись 2, единица хранения 161.

6. Azərbaycan tarixi. Yeddi cilddə. V cild. Bakı: "Elm" nəşriyyatı, 2008. 696 səh.

7. Bağırova Ş. Qafqaz ölkələrinin qeyri-hökumət təşkilatları. Bakı: "Elm və təhsil", 2022, 204 səh.

8. Barixaşvili M. Культурно-просветительская деятельность грузинской диаспоры в Азербайджане в конце XIX и в начале XX века. http://www.kavkazoved.info/news/2011/10/30/kulturno-prosvetitelskaja-dejatelnost-gruzinskoj-diaspory-v-azerbajdzhane-v-konce-xix-i-v-nachale-xx-veka.html) Материал взят из книги «История и идентичность: Южный Кавказ и другие регионы, находящиеся в переходном периоде», Ереван, 2010 г.

9. Витте С.Ю. Воспоминания. Том 3. Электронная библиотека RoyalLib.com https://libking.ru/books/nonf-/nonf-biography/290968-9-sergey-vitte-vospominaniya-tom-3.html#book

10. Гварадзе Х. О характере женского движения в Грузии (в конце XIX – начало XX века). https://dogmon.org/hatuna-gvaradze-harakter-jenskogo-dvijeniya-v-gruzii.html. 22.05.2016

11. Гучуа Т. Вопрос родного языка в грузинской диаспоре в городе Баку (1908-1915 гг.). http://www.anl.az/down/meqale/elmi_xeb_adu/2018/3-4/798873(meqale).pdf

12.Киквидзе А., Ратиани П., Сургуладзе А. История Грузии. Тбилиси. Издательство «Ганатлеба», 1973. https://elfiles.emis.ge/uploads/7048/conversions/163-compressed.pdf

13.Рустамова-Тогиди С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Баку. Типография «İNDİGO», 2009, 863 с.

Daxilolma tarixi: 16.03.2023
Çapa qəbul edilmişdir: 02.06.2023